# AZƏRBAYCAN RESPUBLİKASININ
# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ

AZ 1009, Bakı şəhəri,
Salatın Əsgərova küç, 85

Tel: (+99412) 526-01-01, faks (+99412) 596-50-33
e-poçt: info@sosial.gov.az

16 fevral 2026-cı il

3-17/2-1821/2026

**Azərbaycan Respublikası
Auditorlar Palatasının
sədri**

**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Sizi Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılmasının 30 illiyi münasibətilə ürəkdən təbrik edirəm!

Müasir Azərbaycan dövlətçiliyinin banisi, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf konsepsiyası ölkəmizdə maliyyə nəzarəti institutlarının formalaşdırılması və möhkəmləndirilməsi üçün möhkəm hüquqi və institusional əsas yaratmışdır. Bu strateji xəttin möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində audit sistemi müasir tələblərə uyğun şəkildə təkmilləşdirilmiş, onun fəaliyyət dairəsi və təsir imkanları əhəmiyyətli dərəcədə genişlənmişdir.

Ötən 30 il ərzində Auditorlar Palatası dövlət maliyyə intizamının gücləndirilməsi, şəffaflığın təmin olunması, ictimai etimadın artırılması və qabaqcıl beynəlxalq audit prinsiplərinin tətbiqi istiqamətində mühüm nailiyyətlər əldə etmişdir.

Şübhəsizdir ki, zəngin təcrübəyə və məsuliyyətli yanaşmaya əsaslanan fəaliyyətiniz bundan sonra da maliyyə nəzarətinin səmərəliliyinin artırılmasına, dövlət və ictimai maraqların etibarlı qorunmasına mühüm töhfələr verəcəkdir.

Sizi bu əlamətdar gün münasibətilə bir daha təbrik edir, respublikamızın tərəqqisi naminə səmərəli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram!

**Hörmətlə,**

**Nazir** **Anar Əliyev**